# Uşaq bağçalarının tabeçilik problemi

## Mütəxəssislərin fikrincə, keyfiyyətli təhsil üçün uşaq bağçalarının Təhsil Nazirliyinin tabeliyinə verilməsi məsələsi tezliklə həll olunmalıdır

**Azərbaycanda uşaq bağçalarının Təhsil Nazirliyinin tabeliyinə qaytarılması məsələsi yenidən gündəmə gəlib. Xatırladaq ki, 2011-ci ilədək nazirliyin tabeliyində olan uşaq bağçaları sonradan Bakı şəhər İcra Hakimiyyətinin tabeliyinə verilmişdi.**



Hazırda ölkəmizin yaşayış məntəqələrinin təxminən 60 faizində uşaq bağçası yoxdur. Mövcud uşaq müəssisələri isə demək olar ki, tələbatı ödəmir. Bəs belə olan təqdirdə hansı addımlar atmaq lazımdır, ümumiyyətlə, uşaq bağçaları hansı dövlət təşkilatının tabeliyində olmalıdır? Mövzu ilə bağlı söhbətləşdiyimiz ekspertlər bu sahənin Təhsil Nazirliyinin balansında olmasını daha məqbul hal kimi qiymətləndirirlər.

**Təhsil eksperti Etibar Əliyev** "Kaspi"yə açıqlamasında qeyd edib ki, tabeliyin dəyişilməsi təhsildə olan harmoniyanı pozur: "Bütün dünya ölkələrində təhsil sisteminin bütövlüyü qorunur və onun fasiləsizliyi təmin olunur. Ola bilməz ki, Azərbaycanda təhsilin ilk və əsas pillələrindən biri başqa quruma tabe olsun və yaxud da ikili tabeçilik sistemi olsun. Bu fasilələr zamanı məktəbəqədər harmoniya pozulur. Belə hallar zamanı istər təhsilin keyfiyyətinə cavabdehlik məsələsində, istərsə də təhsilin digər məsələlərində dolaşıqlıq yaranır. Uşaq bağçalarının icra hakimiyyətlərinə tabe edilməsi səhv bir addım idi və bu yanlışlıq düzəldilməlidir. Tərbiyə məsələsinin təşkili, məktəbəqədər təhsil üçün vəsaitlərin hazırlanması, kurikulum sisteminin hazırlanması, pedaqoji kadrların təminatı məsələlərini nazirlik birbaşa özü həll etməlidir. Yerli icra hakimiyyətlərinin müvafiq strukturları isə buna imkan vermir. Orada təhsil şöbəsinə bir neçə nəfər baxır ki, onlar bu qədər mürəkkəb və eyni zamanda təhsil yüklü məsələlərin həlli iqtidarında deyillər. Ona görə də, gec də olsa, bu məsələ artıq öz həllini tapmalıdır və məktəbəqədər təhsilin inkişafına böyük qayğı göstərilməlidir. Bütün inkişaf etmiş ölkələrdə uşaqların təxminən 70-90 faizi orta təhsilə məktəbəqədər təhsildən adlayırlar. Bizdə isə bu göstərici 13-15 faiz təşkil edir. Digər tərəfdən isə tabelik məsələlərində qeyri-müəyyənlik əlbəttə ki, təhsilin bu pilləsinə çox mənfi təsir göstərir".

Həmsöhbətimiz bildirdi ki, hazırda uşaq bağçalarında müəyyən problemlər mövcuddur. E.Əliyev bu problemlərin sonradan daha böyük problemlərə çevrildiyini vurğuladı: "Bu gün uşaq bağçalarının istər metodiki təminatı, istərsə kurikulumların tətbiqi nəticəsi, istərsə də tərbiyəçilərin işlərinin keyfiyyətinin qiymətləndirilməsi baxımından çox zəif işlər aparılır. Bu aspektləri yerli icra hakimiyyətləri yerinə yetirmək iqtidarında deyil. Hələ sovetlər birliyi dönəmindən Təhsil Nazirliyində xüsusi məktəbəqədər təhsil şöbələri fəaliyyət göstərirdi. Biz bu gün məktəbəqədər təhsili düzgün qiymətləndirə bilməsək, ümumi orta təhsilə uşaqların və yeniyetmələrin hazırlıq səviyyəsinə düzgün qiymət verə bilmərik. Bunu inkişaf etmiş Qərb ölkələrinin təcrübəsi də sübut edib. Əgər tabelik baş verəcəksə, bu zaman tərbiyənin keyfiyyətində müsbətə doğru irəliləyiş hiss olunacaq. Hazırda birmənalı şəkildə qeyd edə bilərəm ki, məktəbəqədər təhsil sistemində durğunluq müşahidə olunur. Bu təhsilin keyfiyyəti və əhatə dairəsi ilə peşəkarlar məşğul olmalıdır. Məktəbəqədər təhsilin keyfiyyəti ümumiyyətlə qiymətləndirilmir desəm, yəqin ki, yanılmaram. Uşaqların fiziki və zehni inkişafı, nəticələri, davamlılığı kimi məsələlərə bu müddət ərzində diqqət edilməyib. Əgər belə bir tabelik sistemi yaradılacaqsa, təbii ki, Təhsil Nazirliyinin üzərinə böyük yük və məsuliyyət düşəcək. Bu gün təhsilin ən çox geriləyən və orta təhsilin inkişafına öz töhfəsini verə bilməyən sahəsi məhz məktəbəqədər təhsildir. Bu məsələ tezliklə həll olunmalıdır deyə, düşünürəm ki, yaranan bu fürsəti əldən vermək olmaz. Milli Məclisdə bu barədə qanun qəbul edilməlidir. Uşaq bağçalarının nazirliyin tərkibinə qatılması problemi tezliklə həll olunmalıdır".

**Sosioloq Əhməd Qəşəmoğlu** qəzetimizə açıqlamasında uşaq bağçaları ilə bağlı vahid platformanın olmasının vacib olduğunu vurğuladı. O qeyd etdi ki, əsas məsələ bu sahənin hansı dövlət orqanının tabeliyində olması məsələsi deyil. Burada vacib məqam düzgün qurulan sabit iş rejimidir: "Tabeliyin hər hansı bir dövlət qurumunun səlahiyyətində olması əslində işin formal tərəfləridir. Bu gün bu məsələyə Təhsil Nazirliyi, növbəti gün isə yerli icra hakimiyyəti baxa bilər. Burada problemli bir şey yoxdur. Lakin uşaq bağçaları ilə bağlı ölkənin vahid siyasəti olmalıdır. Bu işin kimə tapşırılmağından asılı olmayaraq, yenə də həmin siyasət həyata keçirilməlidir. Bu gün nazirlik bağçaları bir sistemlə idarə edirsə, növbəti gün bu sistem tamamilə dəyişilir. Bu isə elmi tərəfdən çox qeyri-düzgün münasibətdir. Dövlətin bununla bağlı vahid platforması olmalıdır".

Sosioloq bu mövzunun yenidən gündəmə gəlmə səbəblərini də açıqladı: "Burada söhbət körpələrdən və uşaqlardan, yəni bizim gələcəyimizdən gedir. Bu, subyektiv müdaxilə vasitəsilə həll edilən bir şey deyil və bu sahədə ciddi fəaliyyət proqramı hazırlanmalıdır. Bu o zərurətdən irəli gələ bilər ki, yerli icra hakimiyyətinin bu vəzifəni doğrultmadığı bəlli oldu. Bunun arxasında heç bir sosioloji əsas yoxdur və cəmiyyətin qanunlarına söykənmir. Mənim subyektiv fikrimcə, uşaq bağçalarının tabeliyinin Təhsil Nazirliyində olması daha məqsədəuyğundur. Çünki Təhsil Nazirliyi birbaşa yeni nəslin formalaşması ilə məşğuldur. Nazirlik özü tələb qoyub ki, birinci sinifə gələn uşaqların müəyyən ilkin hazırlığı olmalıdır. Lakin icra strukturları bunun bir o qədər də fərqində deyil. Təhsil Nazirliyi bu gün istəyərsə, həmin tələbinə görə də uşaq bağçalarında sistemi elə təşkil edəcək ki, o uşaqlar həqiqətən də hazırlıqlı olacaqlar. Bu baxımdan yanaşanda tabeliyin nazirliyə qaytarılması daha doğru olardı. Lakin yenə də qeyd edim ki, əsas odur ki, bu sahədə işlər düzgün qurulsun və bunun əsasında ciddi hazırlanmış fəaliyyət proqramı və hüquqi baza olsun. Ən azından nazirliyin tərkibində bağçaların işini bilən kadr çoxdur, lakin icra hakimiyyətində belə adamların sayı demək olar ki, yox dərəcəsindədir".

**Milli Məclisin Elm və təhsil Komitəsinin üzvü, millət vəkili Ağacan Abıyev** qəzetimizə açıqlamasında təhsilin bütöv sistem olduğunu və bu məsuliyyətin öhdəsindən peşəkar tərbiyəçilərin gələcəyini bildirdi: "Uşaqların təhsilinin təməli məhz uşaq bağçasında qoyulur. Burada məktəbəqədər təhsil ilə məktəb təhsili arasında həm ardıcıllıq, həm də uyğunluq olmalıdır. Bu, qırılmaz bir zəncir kimi olmalı və məntiqi ardıcıllığa əsaslanmalıdır. Bu məsələnin yenidən gündəmə gəlməsi məhz bu uyğunluğu bərpa etmək zərurətindən irəli gəlir. Burada uşaq bağçalarının tabeliyinin kimdə olmasının əhəmiyyəti bir qədər də böyük deyil. Əsas olan işin keyfiyyətidir. Bu işi məhz peşəkar tərbiyəçilər və pedaqoqlar öz üzərinə götürməlidir. Hələlik bu məsələ Milli Məclisdə geniş müzakirə edilməyib. Əgər bu mövzuda bir ciddiyyət olarsa, bu məsələyə baxılacaq".

**Şəbnəm Mehdizadə**